# Bir ailədən üç igid, üç oğul, üç şəhid...





**Üstündən illər, əsrlər keçsə də, Azərbaycan xalqı 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə erməni işğalçılarının Xocalıda törətdikləri soyqırımını heç vaxt unutmayacaq. Xocalı faciəsində şəhid olmuş oğul və qızlarının xatirəsini həmişə hörmətlə anacaq. Dünyanı dəhşətə gətirən Xocalı soyqırımının 33 illiyi ərəfəsində ölkəmizin hər yerində mərasimlər keçirilir, şəhidlər hörmətlə anılır.**

Sabunçu Gənclər Evində Xocalının müdafiəsində böyük hünər və cəsarət göstərmiş onlarla dinc sakinlərin həyatını xilas edərkən şəhid olmuş Xəqani Aslanovun xatirəsinə həsr olunmuş anım mərasimi keçirildi. Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olanların ruhu birdəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbirin aparıcıları Səriyyə Aslanova və Fərid Fəryad şəhid Xəqani Aslanovun ömür və döyüş yolu haqqında tədbir iştirakçılarına ətraflı məlumat verdilər. Bildirdilər ki, Xocalı faciəsində şəhid olan Xəqani Aslanov 18 avqust 1955-ci ildə Ağdam rayonunun Şelli kəndində, sadə bir ailədə dünyaya göz açmışdı. Kəndlərindəki orta məktəbi bitirdikdən sonra atasının sənətini davam etdirmək arzusuyla Şuşa şəhərində plan-uçot texnikumuna qəbul olmuşdu. Təhsilini uğurla başa vurduqdan sonra doğma kəndlərindəki "Şelli" sovxozunda mühasib işləməyə başlamışdı. Bir müddətdən sonra hərbi xidmətə çağırılmışdı. Əsgəri xidmətini uzaq Murmansk şəhərində başa vuraraq alnıaçıq doğmalarının yanına qayıtmışdı. Əsgəri xidmətdən sonra Xəqani Aslanov bir vaxtlar oxuduğu məktəbdə ibtidai hərbi-hazırlıq müəllimi işləmişdi. Böyük həvəslə sabahın gənclərinə hərbi sirləri öyrətmişdi.

Erməni qəsbkarları Qarabağın kəndlərinə hücum çəkib yandıranda, sakinlərini öldürüb doğma ocaqlarından qovanda silaha sarılanlardan biri də Xəqani Aslanov oldu. Çox keçmədi ki, o biri qardaşları Vidadi və Hasil də torpaq uğrunda vuruşan oğulların sırasına qoşuldular. Xocalı soyqırımı baş verən gecə ilk haraya çatanlardan biri də Şelli kəndinin özünümüdafiə qüvvələri oldu. Xəqani öz dəstəsi ilə Qara Qaya istiqamətindən keçərək özlərini fəryad edən xocalılılara çatdırdılar. Ermənilərə əsir düşməmək üçün qarlı meşələrə, dağlara üz tutmuş insanları xilas etdilər. Az müddət ərzində onlarla Xocalı sakinini bir yerə toplayıb, yaralı və meyitləri götürərək güllə altından çıxardılar. Xəqani tabeçiliyində olan əsgərlərə çayın qırağındakı kolluqlarla Ağdama tərəf getmələrini əmr edir. Cəsur komandir özü isə təkbaşına yenə də xocalılıların axtarışını davam etdirir. Üzü Xocalıya tərəf gedir. Bu, Xəqaninin son gedişi olur. Təəssüflər olsun ki, hələ də nə öldüyündən, nə də sağ olduğundan bir xəbər yoxdur...

Xəqaninin o biri qardaşları Hasil və Vidadi Aslanovlar isə eyni gündə, 1993-cü ilin 23 iyulunda, Ağdam rayonu ermənilər tərəfindən işğal olunduğu gün şəhid olublar. Beləcə Qarabağ müharibəsində bir ailədən üç igid, üç oğul şəhid oldu.

Şəhid Xəqani Aslanovun anım günündə iştirak edən məktəblilər qəhrəmanlığı, vətənpərvərliyi tərənnüm edən şeirlər söylədilər. Bakı şəhər İ.Hacıyev adına "Tərəqqi" texniki-humanitar liseyinin birinci sinif şagirdi Rahil Məmmədzadənin böyük coşqu ilə söylədiyi qəhrəmanlığa həsr olunmuş şeirləri anım mərasimində iştirak edənlərin qəlblərini titrətdi.

Daha sonra şəhidin oğlu Sadiq Aslanov, Respublika Şəhid Ailələrinə Qayğı Cəmiyyətinin sədri Müşfiq Əliyev, vətənpərvər gənclər Rahib Məmmədov, Ravin Həsənov və başqaları çıxış edərək Xəqani Aslanovun döyüşlərdə göstərdiyi igidliklərdən ətraflı söz açdılar.

Şəhidin həyat yoldaşı Sədaqət Aslanova çıxış edərək Xəqani Aslanovun xatirəsini əziz tutduqlarına görə tədbirin həm təşkilatçılarına, həm də iştirakçılarına minnətdarlığını bildirdi.

***Reyhan TAHİRQIZI,***
***Laçından olan keçmiş məcburi köçkün***

Azərbaycan.- 2025.- 27 fevral (№ 44).- S.5.